# CICA və ona üzv dövlətlərin Asiyada nəqliyyat dəhlizləri üçün səyləri müzakirə olunub




**Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Dayanıqlı bağlantıya aparan yollar: CICA və ona üzv dövlətlərin və Asiyada Regional Təşkilatların Təhlükəsiz, Effektiv və İqlimə Dayanıqlı Nəqliyyat Dəhlizləri üçün səyləri" mövzusunda müzakirələr keçirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Ticarət Limanının meneceri Qurban Kərimbəylinin moderatorluğu ilə keçirilən tədbirdə CICA və ona üzv dövlətlər haqqında məlumat verilib.

Tədbirdə Bakı Limanının dünya səviyyəsində "yaşıl liman" kimi inkişafından danışılıb. Azərbaycanın dayanıqlı inkişaf məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs olunub. 28 üzv, 10 müşahidəçi dövlət, 5 müşahidəçi və 6 tərəfdaş təşkilatdan ibarət olan CICA sammiti haqqında məlumat verilərək Azərbaycanın daşıma dəhlizi sahəsindəki geosiyasi potensialı olduğu vurğulanıb.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin beynəlxalq əlaqələr üzrə meneceri Natavan Ağayeva Orta dəhlizin "yaşıl dəhliz"ə çevrilməsindən danışıb. O CICA ilə əməkdaşlığın əhəmiyyətini qeyd edərək, Bakı Limanının Asiya və Avropa arasında mühüm rol oynadığını diqqətə çatdırıb. Həmçinin Ələt limanı haqqında məlumat verərək, Xəzər dənizi vasitəsilə daşımaların həcminin artdığını vurğulayıb: "Regionun logistika və nəqliyyat qovşağı olan Bakı Limanı öz əməliyyat prinsiplərini Dayanıqlı İnkişaf Məqsədləri (DİM) prinsiplərinə uyğunlaşdırmağa, eləcə də regional təchizat zəncirinin inkişaf etdirilməsi üçün dayanıqlı mexanizmlər yaratmaqla qlobal davamlı inkişaf strategiyasına töhfə verməyə çalışır".

Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.15.